# AZƏRBAYCANDA NİKAH VƏ BOŞANMALARIN STATİSTİK GÖSTƏRİCİLƏRİNİN TƏSVİRİ VƏ AİLƏ PLANLAMASI



2022

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU
IDI
INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# AZƏRBAYCANDA NİKAH VƏ BOŞANMALARIN STATİSTİK GÖSTƏRİCİLƏRİNİN TƏSVİRİ VƏ AİLƏ PLANLAMASI

**Müəlliflər: Könül Alıyeva və Ülkər Zalova Nuriyeva**

**Baku-2022**

# Mündəricat

1. GİRİŞ ........ 4
2. NİKAHLAR VƏ BOŞANMALAR - STATİSTİK GÖSTƏRİCİLƏRİN TƏSVİRİ ........ 6
3. SORĞUNUN NƏTİCƏLƏRİ ........ 13
4. NƏTİCƏLƏR VƏ MƏHDUDİYYƏTLƏR ........ 16
5. İSTİNAD SİYAHISI ........ 17

# 1. GİRİŞ

Dünya Səhiyyə Təşkilatına (DST) görə, ailə planlaması "fərdlərin və cütlüklərin istədikləri uşaq sayını, doğuşların intervalını və vaxtını qabaqcadan təxmin etmək bacarığıdır. Buna kontraseptiv vasitələrin istifadəsi və sonsuzluğun müalicəsi yolu ilə nail olunur." (Birləşmiş Millətlər Təşkilatı, 2017) Ailə planlamasının mövcudluğu cütlüklərə yalnız ailə üzvlərinin sayının müəyyənləşdirilməsinə imkan vermir, o həmçinin fərdin sağlamlığını və hüquqlarını qoruyur, cütlüklərin və onların uşaqlarının həyat keyfiyyətini yaxşılaşdırır.

Ailə planlaması ana və uşağın sağlamlığı, arzuolunmaz hamiləliyin və təhlükəli abortların yayılmasının qarşısının alınması və ya azaldılması, cinsi yolla ötürülən infeksiyalardan qorunması və ailələrinin iqtisadi rifahının yaxşılaşdırılması baxımından olduqca vacib sayılır (Kassim, M., Ndumbaro, F. 2020). Həmçinin kontraseptiv vasitələrin istifadəsi fərdlərə və cütlüklərə uşaq sahibi olub-olmayacağına, nə zaman və neçə uşağa sahib olacağına azad və məsuliyyətli şəkildə qərar vermə təməl hüququnu reallaşdırmaqda kömək edir (Birləşmiş Millətlər Təşkilatı, 2017).

Dünya Səhiyyə Təşkilatına görə, ailə planlaması üç kritik ehtiyaca xidmət edir: 1)cütlüklərin arzuolunmaz hamiləlikdən yayınmasına kömək edir; 2)cinsi yolla yoluxan xəstəliklərin yayılmasının qarşısını alır; 3)cinsi yolla yoluxan xəstəliklər probleminə fokuslanaraq sonsuzluq faizinin azaldılmasına kömək edir (Institute of Medicine (US) Committee on a Comprehensive Review of the HHS Office of Family Planning, 2009).

Ailə planlaması həmçinin ailədəki hər bir uşağı yetərincə sevgi, qayğı, yüksək səviyyəli təhsil və keyfiyyətli həyat şəraiti ilə təmin etmək baxımından çox önəmlidir.

Beləliklə, Birləşmiş Millətlər Təşkilatı davamlı inkişaf məqsədlərinə çatmaqdan ötrü ailə planlamasını vacib saydığı üçün onun istifadəsini artırmağı və davam etdirməyi prioritet məsələ kimi qoyur. (Solanke B.L. 2018) Cütlüklərə uşaqlarının sayı və uşaqlar arasındakı zaman müddəti barədə sərbəst və məsuliyyətli qərar vermək hüquqlarını həyata keçirməyə kömək üçün təhlükəsiz və etibarlı ailə planlaması üsullarının tam spektrinə universal çıxışa diqqət yetirir (Mustafa G, Azmat SK, Hameed W, Ali S, Ishaque M, Hussain W. 2015).

Yuxarıda qeyd olunanlardan belə qənaətə gələ bilərik ki, ailə planlaması ilə bağlı fərdlərin və cütlüklərin məlumatlılıq səviyyəsini artırmaq çox önəmlidir. Məhz buna görə də tədqiqatımızın əsas məqsədi gənc ailələrin ailə planlaması ilə bağlı bilgilərini öyrənmək və onların məlumatlılığının ailə planlamalarına necə təsir göstərdiyini aşkar etməkdir. Bundan başqa, bu tədqiqat işi oxuculara Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları əsasında ölkəmizdə müxtəlif illərdə nikah və boşanma statistikasının təhlilini, bu xüsusda müşahidə olunan dinamikanın səbəblərini təqdim edir.

Tədqiqat işi onlayn sorğu nəticəsində əldə edilmiş respondent cavablarına əsasən, Azərbaycan kontekstində I) *ailə planlaması haqqında agahlıq səviyyəsi, II*) *ailə planlanmasının tətbiqi* ilə əlaqədar nəticələri ortaya çıxarır.

Tədqiqat işi data toplanması baxımından Azərbaycanın müxtəlif sosial seqmentlərini əhatələməklə onlayn sorğulara əsaslanır. Onlayn surətdə aparılan sorğular nəticəsində 56 ədəd doldurulmuş sorğu əldə edilib, onların uyğun şəkildə analizi aparılıb.

# 2. NİKAHLAR VƏ BOŞANMALAR - STATİSTİK GÖSTƏRİCİLƏRİN TƏSVİRİ

Ədliyyə Nazirliyinin tərtib etdiyi nikah bağlanması və pozulması barədə aktlarda verilmiş məlumatların işlənilməsi nəticəsində nikah və boşanmalar haqqında məlumatlar əldə edilir. Azərbaycan Respublikasında nikaha daxil olmaq üçün minimum yaş həddi həm qadınlarda, həm də kişilərdə 18-dir.

Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsində qeydiyyatdan keçirilən tarix nikah tarixi kimi götürülür və nikahın pozulması qeydiyyatdan keçirildiyi andan pozulmuş sayılır.

**Nikah** fərdlər arasında ailə qurmaq məqsədilə uyğun icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqdır. Azərbaycanda ailə və nikah hüquqları ailə və nikah haqqında Azərbaycan Respublikasının Ailə Məcəlləsində öz əksini tapıb və bu nikah Azərbaycan Respublikasının Konstitusiyasında qoyulmuş qaydalarla həmin məcəllə əsasında tənzimlənir. Azərbaycanın Əsas Qanununun 34-cü maddəsinə uyğun olaraq "nikah qarşılıqlı razılıq əsasında bağlanır", "nikah dövlətin himayəsi altındadır", "ər və arvadın hüquqları bərabərdir".

**Nikahın ümumi əmsalı** - il ərzində qeydə alınan nikahların ümumi sayının əhalinin orta illik sayına nisbəti sayılır və bu, əhalinin hər 1000 nəfərinə əsasən hesablanır.

**Boşanma və ya nikahın pozulması** - dövlət qeydiyyatını qanunvericilikdə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanı aparır. Boşanma faktı Ədliyyə Nazirliyinin qeydiyyat şöbələrində qeydiyyata götürüldüyü vaxtdan pozulmuş sayılır.

**Boşanmanın ümumi əmsalı** – qeydə alınan boşanma sayının həmin dövr ərzində əhalinin orta illik sayına nisbətidir. Bu, əhalinin hər 1000 nəfərinə əsasən hesablanır.

Azərbaycan Respublikasında nikahların rəsmi formada qeydiyyata alınması 1935-ci ildən başlanıb (Cədvəl 1.)[1]. Azərbaycan Respublikasının Statistika Komitəsinin 1935-ci ildən 2020-ci ilə qədər rəsmi qeydiyyata alınmış nikah və boşanmaların sayı və ümumi əmsallarla bağlı statistik məlumatlarına əsasən, 1935-ci ildə nikahların sayı 31262, ümumi əmsal isə 10.5 olub. 2000-ci ildən etibarən nikahların sayında kəskin artmalar müşahidə olunsa da, 2020-ci ildə rəsmi qeydə alınmış nikahların sayı azalaraq 35348 olub. Əhalinin hər 1000 nəfərinə görə nikahların ümumi əmsalı isə 3.5 olub. 1935-ci ildə rəsmi qeydə alınmış boşanmaların sayı 14438, ümumi əmsal isə 4.9 olub. İllər ərzində boşanmaların sayında əsasən azalmalar müşahidə olunsa da, son illərdə bu say müəyyən qədər artıb və 2020-ci ildə 14628 olub. Həmin il boşanmaların ümumi əmsalı isə 1.5 olub.

[1] https://www.stat.gov.az/source/demoqraphy/az/006_1.xls

**6.1. Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları**

| İllər | Nikahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | nikahların sayı | boşanmaların sayı |
| **Şəhər və kənd yerləri üzrə - cəmi** | | | | |
| 1935 | 31262 | 14438 | 10.5 | 4.9 |
| 1936 | 31840 | 11607 | 10.5 | 3.8 |
| 1937 | 29663 | 8379 | 9.5 | 2.7 |
| 1938 | 32344 | 9652 | 10.2 | 3.0 |
| 1939 | 29542 | 9747 | 9.1 | 3.0 |
| 1940 | 28271 | 10083 | 8.6 | 3.1 |
| 1941 | 23399 | 7528 | 7.2 | 2.3 |
| 1942 | 10840 | 4810 | 3.6 | 1.6 |
| 1943 | 11170 | 5644 | 3.9 | 2.0 |
| 1944 | 14418 | 4174 | 5.3 | 1.5 |
| 1945 | 15766 | 310 | 5.8 | 0.1 |
| 1946 | 28420 | 581 | 10.4 | 0.2 |
| 1947 | 27308 | 900 | 10.0 | 0.3 |
| 1948 | 22014 | 881 | 8.2 | 0.3 |
| 1949 | 21020 | 870 | 7.5 | 0.3 |
| 1950 | 23862 | 883 | 8.2 | 0.3 |
| 1951 | 25595 | 896 | 8.5 | 0.3 |
| 1952 | 24906 | 1018 | 8.0 | 0.3 |
| 1953 | 26984 | 1091 | 8.5 | 0.3 |
| 1954 | 31681 | 1384 | 9.8 | 0.4 |
| 1955 | 34359 | 1505 | 10.3 | 0.5 |
| 1956 | 36574 | 1497 | 10.7 | 0.4 |
| 1957 | 41732 | 1768 | 11.8 | 0.5 |
| 1958 | 49466 | 2285 | 13.6 | 0.6 |
| 1959 | 48028 | 2358 | 12.8 | 0.6 |
| 1960 | 46635 | 2910 | 12.0 | 0.7 |
| 1961 | 44008 | 2804 | 10.9 | 0.7 |
| 1962 | 47984 | 2976 | 11.5 | 0.7 |
| 1963 | 44889 | 3071 | 10.5 | 0.7 |
| 1964 | 37655 | 3162 | 8.5 | 0.7 |
| 1965 | 39077 | 3537 | 8.5 | 0.8 |
| 1966 | 40069 | 7343 | 8.5 | 1.6 |

| | | | | |
|---|---|---|---|---|
| **1967** | **37002** | **6888** | **7.7** | **1.4** |
| **1968** | **35947** | **7190** | **7.3** | **1.5** |
| **1969** | **34193** | **6695** | **6.8** | **1.3** |
| **1970** | **35222** | **6786** | **6.8** | **1.3** |
| **1971** | **35919** | **6686** | **6.8** | **1.3** |
| **1972** | **35555** | **6461** | **6.6** | **1.2** |
| **1973** | **38148** | **6605** | **6.9** | **1.2** |
| **1974** | **43699** | **6765** | **7.8** | **1.2** |
| **1975** | **47173** | **7096** | **8.3** | **1.2** |
| **1976** | **47368** | **7156** | **8.2** | **1.2** |
| **1977** | **50200** | **7073** | **8.5** | **1.2** |
| **1978** | **54782** | **7284** | **9.2** | **1.2** |
| **1979** | **59238** | **7154** | **9.8** | **1.2** |
| **1980** | **60134** | **7116** | **9.8** | **1.2** |
| **1981** | **61954** | **6869** | **9.9** | **1.1** |
| **1982** | **62143** | **6789** | **9.8** | **1.1** |
| **1983** | **65962** | **7314** | **10.2** | **1.1** |
| **1984** | **67368** | **7119** | **10.3** | **1.1** |
| **1985** | **70104** | **7879** | **10.5** | **1.2** |
| **1986** | **71371** | **8199** | **10.5** | **1.2** |
| **1987** | **68031** | **8511** | **9.9** | **1.2** |
| **1988** | **68887** | **9226** | **9.9** | **1.3** |
| **1989** | **71874** | **11436** | **10.4** | **1.7** |
| **1990** | **73119** | **14040** | **10.4** | **2.0** |
| **1991** | **74378** | **10679** | **10.4** | **1.5** |
| **1992** | **68740** | **9465** | **9.5** | **1.3** |
| **1993** | **60028** | **6564** | **8.1** | **0.9** |
| **1994** | **47147** | **6256** | **6.3** | **0.8** |
| **1995** | **43130** | **5669** | **5.7** | **0.7** |
| **1996** | **38572** | **5598** | **5.0** | **0.7** |
| **1997** | **46999** | **5806** | **6.1** | **0.8** |
| **1998** | **40851** | **5657** | **5.2** | **0.7** |
| **1999** | **37382** | **5013** | **4.7** | **0.6** |
| **2000** | **39611** | **5478** | **5.0** | **0.7** |
| **2001** | **41861** | **5382** | **5.2** | **0.7** |
| **2002** | **41661** | **5738** | **5.1** | **0.7** |
| **2003** | **56091** | **6671** | **6.8** | **0.8** |
| **2004** | **62177** | **6914** | **7.5** | **0.8** |
| **2005** | **71643** | **8895** | **8.5** | **1.1** |
| **2006** | **79443** | **7817** | **9.4** | **0.9** |

| | | | | |
|---|---|---|---|---|
| **2007** | **81758** | **8340** | **9.5** | **1.0** |
| **2008** | **79964** | **7933** | **9.2** | **0.9** |
| **2009** | **78072** | **7784** | **8.8** | **0.9** |
| **2010** | **79172** | **9061** | **8.9** | **1.0** |
| **2011** | **88145** | **10747** | **9.7** | **1.2** |
| **2012** | **79065** | **11087** | **8.6** | **1.2** |
| **2013** | **86852** | **11730** | **9.3** | **1.3** |
| **2014** | **84912** | **12088** | **9.0** | **1.3** |
| **2015** | **68773** | **12764** | **7.2** | **1.3** |
| **2016** | **66771** | **13114** | **6.9** | **1.4** |
| **2017** | **62923** | **14514** | **6.5** | **1.5** |
| **2018** | **62484** | **14857** | **6.4** | **1.5** |
| **2019** | **63869** | **17148** | **6.4** | **1.7** |
| **2020** | **35348** | **14628** | **3.5** | **1.5** |

**Cədvəl 1. Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları**

Azərbaycan Respublikasının Statistika Komitəsinin təqdim etdiyi statistik məlumatlarda 1990-ci ildən etibarən rəsmi qeydə alınmış nikaha daxil olanların orta yaşı verilib. Cədvəl[2] 2-də cinslər üzrə həm nikaha daxil olanların ortaya yaşı, həm də ilk dəfə nikaha daxil olanların orta yaşı göstərilib. Biz isə tədqiqatımızda əsasən, ilk dəfə nikaha daxil olanların orta yaşının nəzərdən keçirilməsini məqbul sayırıq. Cədvəldə verilən nəticələr göstərir ki, 1990-cı ildə ilk dəfə nikaha daxil olan kişilərdə orta yaş 26.2, qadınlarda isə 23.2 olub. 1990-2020-ci illər arasında həm kişilərdə, həm də qadınlarda orta yaş tədricən artıb. Beləliklə, 2020-ci ildə kişilərdə orta yaş 28.5, qadınlarda isə 24.3 olub.

| **6.2. Rəsmi qeydə alınmış nikaha daxil olanların orta yaşı** | | | | |
|---|---|---|---|---|
| *(yaş sayı)* | | | | |
| **İllər** | **Nikaha daxil olanların orta yaşı** | | **1-ci nikaha daxil olanların orta yaşı** | |
| | **kişilər** | **qadınlar** | **kişilər** | **qadınlar** |
| **1990** | 27.4 | 24.3 | 26.2 | 23.2 |
| **1991** | 26.8 | 23.3 | 26.2 | 22.9 |
| **1992** | 26.7 | 23.2 | 25.9 | 22.7 |
| **1993** | 27.0 | 22.8 | 25.9 | 22.3 |

2 https://www.stat.gov.az/source/demoqraphy/az/006_2.xls

| | | | | |
|---|---|---|---|---|
| **1994** | 27.3 | 22.9 | 24.2 | 22.3 |
| **1995** | 27.5 | 23.0 | 26.5 | 22.9 |
| **1996** | 28.0 | 23.3 | 26.6 | 22.6 |
| **1997** | 28.0 | 23.2 | 26.8 | 22.6 |
| **1998** | 28.1 | 23.3 | 26.6 | 22.6 |
| **1999** | 28.4 | 23.5 | 27.1 | 22.9 |
| **2000** | 28.4 | 23.6 | 27.3 | 23.1 |
| **2001** | 28.4 | 23.6 | 27.3 | 23.1 |
| **2002** | 28.6 | 23.8 | 27.6 | 23.4 |
| **2003** | 28.6 | 23.7 | 27.6 | 23.3 |
| **2004** | 28.5 | 23.7 | 27.5 | 23.3 |
| **2005** | 28.4 | 23.7 | 27.5 | 23.4 |
| **2006** | 28.2 | 23.5 | 27.5 | 23.3 |
| **2007** | 28.1 | 23.5 | 27.4 | 23.3 |
| **2008** | 28.0 | 23.4 | 27.3 | 23.1 |
| **2009** | 28.0 | 23.4 | 27.3 | 23.1 |
| **2010** | 27.9 | 23.4 | 27.3 | 23.1 |
| **2011** | 28.3 | 23.7 | 27.6 | 23.4 |
| **2012** | 28.4 | 24.0 | 27.6 | 23.7 |
| **2013** | 28.4 | 24.0 | 27.7 | 23.7 |
| **2014** | 28.6 | 24.1 | 27.6 | 23.7 |
| **2015** | 28.6 | 24.1 | 27.5 | 23.6 |
| **2016** | 28.6 | 24.1 | 27.6 | 23.7 |
| **2017** | 28.8 | 24.2 | 27.6 | 23.7 |
| **2018** | 29.0 | 24.3 | 27.7 | 23.7 |
| **2019** | 29.4 | 24.7 | 28.1 | 24.0 |
| **2020** | 30.0 | 25.2 | 28.5 | 24.3 |

**Cədvəl 2. Rəsmi qeydə alınmış nikaha daxil olanların orta yaşı**

Azərbaycan Respublikası Statistika Komitəsinin 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən, ev təsərrüfatlarının uşaqların sayına görə bölgüsü müəyyən olunub. Cədvəl[3] 3-də verilən bölgüyə əsasən, şəhər yerlərində bir uşaqlı ev təsərrüfatlarının sayı 33.3%, ikiuşaqlı 40.7%, üçuşaqlı 17.7%, dörd və daha çox uşaqlı ev təsərrüfatı isə 9.75% olub. Kənd yerlərində isə ev təsərrüfatında uşaqların sayında müəyyən qədər fərqlər olub. Belə ki, biruşaqlı

[3] https://www.stat.gov.az/source/demoqraphy/az/006_7-8.xls

ev təsərrüfatlarının sayı 26.7%, ikiuşaqlı 40%, üçuşaqlı 22.3% və nəhayət, dörd və daha çox uşaqlı ev təsərrüfatlarının sayı isə 11%-dir.

Bu göstəricilərə əsasən, həm şəhər, həm də kənd yerlərində ikiuşaqlı ev təsərrüfatlarının sayı daha yüksək olub. Bununla belə, tək uşağı olan ev təsərrüfatları şəhər yerlərində, çoxuşaqlı ev təsərrüfatları isə kənd yerlərində üstündür.

| **6.8. Ev təsərrüfatlarının uşaqların sayına görə bölgüsü** | | | |
|---|---|---|---|
| ***(2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən)*** | | | |
| **18 yaşadək uşaqları olan ev təsərrüfatları** | **18 yaşadək uşaqları olan ev təsərrüfatlarının sayı - cəmi** | ***o cümlədən:*** | |
| | | **şəhər yerlərində** | **kənd yerlərində** |
| **Min** | | | |
| **Cəmi** | **1314.5** | **680.7** | **633.8** |
| ***o cümlədən:*** | | | |
| **1 uşaqlı** | **396.0** | **226.9** | **169.1** |
| **2 uşaqlı** | **529.9** | **276.7** | **253.2** |
| **3 uşaqlı** | **261.9** | **120.3** | **141.6** |
| **4 və çox uşaqlı** | **126.7** | **56.8** | **69.9** |
| **Yekuna görə faizlə** | | | |
| **Cəmi** | **100.0** | **100.0** | **100.0** |
| ***o cümlədən:*** | | | |
| **1 uşaqlı** | **30.1** | **33.3** | **26.7** |
| **2 uşaqlı** | **40.3** | **40.7** | **40.0** |
| **3 uşaqlı** | **19.9** | **17.7** | **22.3** |
| **4 və çox uşaqlı** | **9.7** | **8.3** | **11.0** |

**Cədvəl 3. Ev təsərrüfatlarının uşaqların sayına görə bölgüsü**

Belə güman edirik ki, Azərbaycan Respublikasında nikah və boşanmaların dinamikasına illər ərzində əsasən 2 nəzərəçarpan faktor təsir göstərib.

**Əhali sayının artımı:** Azərbaycanda nikah və boşanmaların sayının illər ərzində artması fonunda ümumi əmsalın azalmasının əsas səbəbinin məhz əhalinin ümumi sayının artmasının olmasını güman etmək mümkündür.

**Covid-19 pandemiyası:** Həmçinin Covid-19 pandemiyası ərzində şənlik mərasimlərinin qadağan olunmasının və yaşayış yerinin tərk edilməsinə qoyulan məhdudiyyətlərin 2020-ci ildə nikah və boşanmalarının sayının kəskin azalmasına təsir göstərdiyini də güman edirik.

Aşağıdakı cədvəldə (Cədvəl 4.)[4] 2019-cu il və 2020-ci ildə nikah və boşanmaların sayının müqayisəsinə baxmaq mümkündür:

**Cədvəl 4. 2019 və 2020-ci ildə nikah və boşanmaların sayı və ümumi əmsalı**

| | | | | |
|---|---|---|---|---|
| **2019** | **63869** | **17148** | **6.4** | **1.7** |
| **2020** | **35348** | **14628** | **3.5** | **1.5** |

[4] https://www.stat.gov.az/source/demoqraphy/az/006_1.xls

# 3. SORĞUNUN NƏTİCƏLƏRİ

Tədqiqatın əsas sualına cavab vermək məqsədilə keçirilmiş sorğunun nəticələrini aşağıdakı kimi təsvir etmək mümkündür: Sorğu onlayn surətdə aparılıb, 56 respondentin cavabı toplanıb. Sorğunu cavablandıranların 71.4 %-i özünü qadın, 26.8 %-i kişi, 1 nəfər olmaqla 1.8 %-i isə qeyri-binar kimi identifikasiya edib. Həmçinin respondentlərin yaş aralığına baxsaq, onların 44.6 %-nin 23-28, 28.6 %-nin 29-34, 10.7 %-nin 18-22, 7.1 %-nin 35-40 yaş aralığında olduğunu, 8.9 %-nin isə 40 yaş üzərində olduğunu görə bilərik. Bundan əlavə, sorğu respondentlərini təsvir edərkən qeyd etmək olar ki, respondentlərin 55.4 %-i ali təhsil (Bakalavr) alan, yaxud almaqda olan, 21.4 %-i magistr təhsili alan, yaxud almaqda olan, 12.5 %-i magistr pilləsindən yuxarı təhsil pilləsini bitirmiş və ya hazırda magistr pilləsindən yuxarı təhsil pilləsində təhsil alan, 7.1 %-i yalnız orta məktəb bitirmiş, 3.6 %-i isə peşə, yaxud orta ixtisas təhsili alan, yaxud almaqda olan şəxslərdir. Həmçinin qeyd edilə bilər ki, respondentlərin 78.6 %-i evli, 16.1 %-i subay, 5.4 %-i boşanmış şəxslərdir.

Sorğunun nəticələrindən bəlli olur ki, cəmiyyətin müxtəlif seqmentlərini təmsil edən sorğunu cavablandırmış şəxslər arasında ailə planlaması ilə bağlı mütəxəssislərə müraciət etmə səviyyəsi olduqca aşağıdır. Belə ki, respondentlərin 94.6 %-i heç bir zaman sözügedən mövzuda mütəxəssis dəstəyi almadığını (Qrafik 1), 98.6 %-i heç zaman Ailə Planlaması Mərkəzinə müraciət etmədiyini (Qrafik 2) bildirib.

**Qrafik 1:**



**Qrafik 2:**




Buna baxmayaraq, respondentlərin 87.5 %-i ailə planlaması baxımından qorunma vasitələrindən istifadə etməni yararlı sayır. Bu nəticələrdən güman etmək olar ki, əhalinin qorunma vasitələrinə inamı əhəmiyyətli dərəcədə yuxarı olsa da, aidiyyətli mütəxəssis və qurumlarla əlaqəsi zəifdir. Həmçinin qeyd etmək gərəkdir ki, respondentlərin 89.3 %-i ailə planlamasının vacib olduğu qənaətindədir və onların partnyorları ilə ailə planlaması haqqında kommunikasiya göstəricisi 82.1%-dir.

Respondentlərin  qorunma vasitələri ilə bağlı verdiyi cavablara əsasən isə, aşağıdakı cədvəlləri (Cədvəl 5, 6) tərtib etmişik.:

**(Cədvəl 5)**

| **Qorunma vasitəsi** | **Heç istifadə etmirəm** | **Bəzən istifadə edirəm** | **Əsasən istifadə edirəm** | **Həmişə istifadə edirəm** |
|---|---|---|---|---|
| Prezervativ (Kondom) | 50 % | 26.8 % | 10.7 % | 12.5 % |
| Geri çəkmə | 46.4 % | 19.6 % | 14.3 % | 19.6 % |
| Qorunma həbləri | 89.3 % | 7.1 % | 3.6 % | - |

| Qorunma vasitəsi | Heç istifadə etmirəm | Bəzən istifadə edirəm | Əsasən istifadə edirəm | Həmişə istifadə edirəm |
|---|---|---|---|---|
| Vaginal şamlar | 92.9 % | 5.4 % | 1.8 % | - |
| Təqvim | 60.7 % | 10.7 % | 10.7 % | 17.9 % |
| İynələr | 98.2 % | - | 1.8 % | - |
| Uşaqlıq boynu diafraqması | 98.2 % | - | 1.8 % | - |
| Digər | 80.4 % | 7.1 % | 3.6 % | 8.9 % |

**(Cədvəl 6)**

| Qorunma vasitəsi | İstifadə etmirəm | İstifadə etməyi düşünmürəm | İstifadə etməyi düşünürəm | İstifadə edirəm |
|---|---|---|---|---|
| Uşaqlıq borularının sterilizasiyası | 82.1 % | 10.7 % | 7.1 % | 0 % |
| Spiral | 69.6 % | 7.1 % | 23.2 % | 0 % |

# 4. NƏTİCƏLƏR VƏ MƏHDUDİYYƏTLƏR

Oxuduğunuz tədqiqat işinin əhəmiyyəti ortaya çıxan bir neçə nəticə ilə səciyyələnir. Tədqiqat işi 1935-2020-ci illər ərzində Azərbaycanda müşahidə olunmuş nikaha daxil olma və nikahı sonlandırma tendensiyalarını deskriptiv təsvir edir. Göstərilən illər üzrə nikahlar və boşanmalar arasında ümumi əmsalın azalmasına təsiredici səbəbin əhalinin təbii artımı olduğunu güman edirik.

Ümumilikdə, yuxarıda göstərilən vaxt aralığında Azərbaycanda müxtəlif çağlarda nikah sayının azalmasına üç tarixi hadisənin təsirini güman etmək mümkündür: I) İkinci Dünya müharibəsi II) Birinci Qarabağ müharibəsi və III) COVID-19 pandemiyasıdır.

Bundan əlavə, tədqiqat işi göstərir ki, respondentlərin mütləq əksəriyyəti ailə planlamasının vacib olduğu qənaətindədir, həmçinin qorunma vasitələrinin istifadəsinin ailə planlamasına yararlı olduğunu düşünür. Lakin Cədvəl 5 və Cədvəl 6-ya nəzər saldıqda qorunma vasitələrindən istifadə göstəricilərinin kafi olmadığını müşahidə edə bilərik. Nəticələr qorunma vasitələri və ailə planlanmasının təşviqinin əhəmiyyətli olduğunu vurğulayır.

Tədqiqat zamanı və tədqiqat dizaynı baxımından ortaya çıxan bir sıra məhdudiyyətləri və çatışmazlıqları bildirməyi zəruri sayırıq. Birinci növbədə qeyd etmək lazımdır ki, rəy sorğusunun onlayn və müyəssərlik metodu əsasında aparılması müxtəlif sosial qruplara çıxış baxımından çatımlılıq problemi yaratmış ola bilər. Nəzərə alınmalıdır ki, əhalinin bir sıra həssas qruplarının onlayn sorğuya cavab vermək imkanı yoxdur. Bundan başqa, data toplama üsulu olaraq onlayn sorğudan istifadə və verilmiş sualların həssaslığı respondentlərin məlumat vermə istəyinə təsir göstərə bilər.

# 5. İSTİNAD SİYAHISI

1. World Family Planning 2017 Highlights. United Nations, New York, 2017 https://www.un.org/development/desa/pd/sites/www.un.org.development.desa.pd/files/files/documents/2020/Jan/un_2017_worldfamilyplanning_highlights.pdf

2. Institute of Medicine (US) Committee on a Comprehensive Review of the HHS Office of Family Planning Title X Program; Stith Butler A, Wright Clayton E, editors. A Review of the HHS Family Planning Program: Mission, Management, and Measurement of Results. Washington (DC): National Academies Press (US); 2009. 2, Overview of Family Planning in the United States. Page 192. Available at:https://www.ncbi.nlm.nih.gov/books/NBK215219/

3. Kassim, M., Ndumbaro, F. Factors Affecting Family Planning Literacy: Perspectives of Women of Childbearing Age in Rural Lake Zone, Tanzania. 2020. Pages 12. https://doi.org/10.21203/rs.3.rs-107991/v1

4. Mustafa G, Azmat SK, Hameed W, Ali S, Ishaque M, Hussain W, et al. Family planning knowledge, attitudes, and practices among married men and women in rural areas of Pakistan : findings from a qualitative need assessment study. Int J Reprod Med. 2015;2015.

5. Starbird E, Norton M, Marcus R. Investing in family planning : key to achieving the Sustainable Development Goals. Glob Health Sci Pract. 2016;4(2):191–210.

6. Solanke BL. Drivers of unmet need for family planning among women of advanced reproductive age in urban Western Africa. In: Family Planning. 2018.

7. United Nations. World Fertility and Family Planning 2020: Highlights. New York: United Nations; 2020. World Fertility and Family Planning 2020: Highlights

8. World Health Organization (WHO). Prevention of maternal mortality. Report of WHO interregional meeting, Geneva 11-15 November 1985, Geneva 16 WHO, 1986:23

9. https://www.fhi360.org/sites/default/files/media/documents/need-family-planning-handouts.pdf

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI